Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir!

40 (1295) 12-18 oktyabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## PREZİDENT İLHAM ƏLİYEV MDB-YƏ ÜZV DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK VƏ XÜSUSİ XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİ ŞURASININ 53-CÜ İCLASININ İŞTİRAKÇILARINI QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 53-cü iclasının iştirakçılarını – Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru, MDB dövlətlərinin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının sədri Aleksandr Bortnikovu, Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini, Belarusun Dövlət Təhlükəsizlik Komitəsinin sədri İvan Terteli, Qazaxıstanın Milli Təhlükəsizlik Komitəsinin sədri Yermek Sagimbayevi, Qırğızıstanın Baş nazirinin müavini, Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Kamçıbek Taşiyevi, Özbəkistanın Dövlət Təhlükəsizlik Xidmətinin sədri Abdusalom Azizovu, Tacikistanın Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Saymumin Yatimovu və MDB-yə üzv dövlətlərin Antiterror Mərkəzinin rəhbəri Yevgeniy Sısoyevi qəbul edib.

## AZƏRBAYCAN İƏT-Ə ÜZV DÖVLƏTLƏRLƏ MÜNASİBƏTLƏRİNƏ XÜSUSİ ƏHƏMİYYƏT VERİR

"Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) fəal üzvüdür və təşkilata üzv olan dövlətlərlə münasibətlərinə xüsusi əhəmiyyət verir. İƏT regionumuzun nəhəng iqtisadi potensialından daha səmərəli istifadə, region ölkələri arasında iqtisadiyyat və ticarət sahəsində əlaqələrin inkişaf etdirilməsi baxımından əlverişli imkanlara malikdir".

Bu fikirlər Prezident İlham Əliyevin Şuşada keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasının iştirakçılarına ünvanladığı müraciətdə yer alıb.

Azərbaycanın təşkilat çərçivəsində əməkdaşlığın bütün sahələrdə genişlənməsinin tərəfdarı olduğunu diqqətə çatdıran dövlətimizin başçısı Şuşa şəhərinin 2026-cı il üçün İƏT-in turizm paytaxtı elan edilməsinə görə təşəkkürünü bildirib.

## ƏRAZİLƏRİMİZDƏ SEPARATİZMƏ SON QOYULMASI BEYNƏLXALQ HÜQUQUN VƏ ƏDALƏTİN TƏNTƏNƏSİDİR

Xalqımız Azərbaycanın suverenliyini, konstitusiya quruluşunu bərpa etməsinin sevincini, qürurunu yaşayır. Otuz ildən sonra ərazilərimizdə mövcud olan "boz" zonanın aradan qaldırılması, separatizmə son qoyulması beynəlxalq hüququn və ədalətin təntənəsidir.

## "BÖYÜK QAYIDIŞ" PROQRAMI MİLLİ PRİORİTETLƏRİMİZ SIRASINDADIR




"İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" proqramı milli prioritetlərimiz sırasındadır. Uğurla icra edilən proqram çərçivəsində bu günə qədər Laçın, Füzuli şəhərlərinə, Ağalı, Zabux və Talış kəndlərinə köçkünlərin qayıtması təmin olunub. Növbəti 3 ildə 100 minə qədər köçkünün doğma yurd-yuvalarına dönməsi planlaşdırılır. Həyata keçirilən layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına xidmət etməklə, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün əlverişli şərait yaradır".

Bu barədə Prezident İlham Əliyev Şuşada keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasının iştirakçılarına ünvanladığı müraciətdə bildirib.

Füzuli şəhərində artıq inşası başa çatmış məktəbə və tikilməkdə olan yaradıcılıq mərkəzinə görə qardaş Özbəkistana və Qazaxıstana təşəkkür edən dövlətimizin başçısı bunu ölkələrimiz arasında qardaşlığın, həmrəyliyin və dostluğun növbəti bariz təzahürü kimi qiymətləndirib.

Azərbaycanın daim sülhün tərəfdarı və bölgədə sülh təşəbbüslərinin müəllifi olduğunu diqqətə çatdıran dövlətimizin başçısı əlavə edib: "Regional məsələlərin bilavasitə region ölkələrinin iştirakı ilə həll edilməsi prinsipindən çıxış edərək Azərbaycan 3+3 əməkdaşlıq formatını irəli sürüb. Hazırda Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, sülh müqaviləsinin imzalanması və Cənubi Qafqaz bölgəsinin sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün tarixi şərait yaranmışdır".

## İKİ ÖLKƏ ARASINDA REGİONAL ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNUB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevi qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin gündəliyindəki məsələlərin çox geniş olduğunu bildirib. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından keçən dövrün ikitərəfli münasibətlərimizin həqiqətən müttəfiqlik xarakteri daşıdığını nümayiş etdirdiyini deyib və bunun bütün sahələrdə özünü göstərdiyini vurğulayıb.

Azərbaycan Prezidenti regional təhlükəsizlik, iqtisadi əlaqələr, nəqliyyat və digər sahələrlə bağlı əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirib.

Görüşdə qlobal və regional məsələlər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb, regional əməkdaşlıq məsələləri müzakirə olunub.

Dövlətimizin başçısı regional məsələlərin 3+3 formatında region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini vurğuladı, bu formatda müvafiq səviyyələrdə görüşlərin keçirilməsini qeyd edib.

Söhbət zamanı Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi istiqamətində Azərbaycan-Rusiya-İran arasındakı əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.



# Qarabağ və Şərqi Zəngəzurda bərpa işləri "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasına uyğun həyata keçirilir

"Azərbaycanın İƏT-də sədrlik mövzusunun "Yaşıl keçid və qarşılıqlı bağlantılar" kimi müəyyən edilməsi hazırkı dövrdə xüsusi aktuallıq kəsb edir".

Bu barədə Prezident İlham Əliyev Şuşada keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasının iştirakçılarına ünvanladığı müraciətdə bildirib.

"Dekarbonlaşma, "yaşıl enerji" növlərinin artırılması kimi məsələlər ölkəmizin dayanıqlı inkişaf gündəliyinin əsasını təşkil edir. Eyni zamanda, "yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma və bərpa işləri "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasına uyğun olaraq həyata keçirilir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

# Nazirlər Kabinetində Naxçıvanın sosial-iqtisadi inkişafına dair iclas keçirilib



Oktyabrın 10-da Nazirlər Kabinetində "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" ilə bağlı iclas keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Dövlət Proqramında nəzərdə tutulmuş işlər üzrə əsas icraçı orqanların rəhbərlərinin müavinlərindən ibarət məsul şəxslərin iştirak etdikləri iclasda Proqramın icra vəziyyətinə dair məsələlər müzakirə edilib.

Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov bildirib ki, Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyən edilmiş 11 prioritet üzrə genişmiqyaslı tədbirlərin görülməsi nəzərdə tutulur. Belə ki, Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə təsdiq olunmuş sözügedən Dövlət Proqramının 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planında biznes mühiti, ticarət, sənaye, kənd təsərrüfatı, turizm, energetika, infrastruktur, insan kapitalı və sosial sektorun inkişafı, institusional və ətraf mühit sahələrində 315 tədbirin həyata keçirilməsi nəzərdə tutulub.

Sonra İİTKM-in icraçı direktoru Vüsal Qasımlı monitorinq və hesabatlılıq portalını təqdim edib, monitorinq və qiymətləndirilmənin aparılması qaydaları haqqında məlumat verib. Qeyd edib ki, aidiyyəti qurumlar tərəfindən portalda yerləşdirilən məlumatlar əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən monitorinq və qiymətləndirmələr aparılaraq nəticələri Nazirlər Kabinetinə təqdim olunacaq.

# "Cənubi Qafqaz ölkələri əməkdaşlığa üçtərəfli formatda başlaya bilərlər"

"İndi isə biz Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi üzərində fəal çalışmalıyıq. Əgər biz buna nail olsaq, - mən buna ümidliyəm, - o zaman Cənubi Qafqazda tamamilə yeni bir siyasi vəziyyət yaranacaq. Cənubi Qafqaz ölkələri əməkdaşlığa üçtərəfli formatda başlaya bilərlər və bir çox sahələr üzrə əməkdaşlıq çox uğurlu ola bilər, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət, qarşılıqlı sərmayə qoyuluşu, bütün bunlar, mümkündür. Sadəcə olaraq biz bundan məhrum idik, ona görə ki, Azərbaycan ərazilərinin bir hissəsi uzun illər işğal altında idi və təbii ki, bu vəziyyət imkan vermirdi ki, normallaşmaya doğru addımlar atılsın. İndi məqam gəlib çatıb və hesab edirəm ki, bu şansı əldən vermək böyük səhv olar". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Tbilisidə mətbuata bəyanatla çıxış edərkən deyib.

"Bu gün bir neçə ölkə və eyni zamanda, bəzi beynəlxalq təşkilatlar Ermənistan və Azərbaycan arasında gedən normallaşma prosesində öz dəstəyini göstərməyə çalışırlar. Biz bunu alqışlayırıq. Əgər bu, birtərəfli və qərəzli deyilsə, əlbəttə, biz istənilən vasitəçiliyi və yardımı qəbul edirik. Ancaq mənim fikrimcə, ən düzgün seçim həm tarixi əlaqələri, həm coğrafi amili nəzərə alaraq, əlbəttə ki, bu sahədə Gürcüstan ola bilərdi. Mən cənab Baş nazirə minnətdaram ki, o da bu sahədə mümkün olan vasitəçilik imkanlarını ortaya qoyur. Hesab edirəm ki, biz buna hazır olan ölkə kimi Ermənistandan da eyni yanaşmanı gözləməliyik və Ermənistan tərəfindən də razılıq olarsa, dərhal bizim aidiyyəti qurumların rəhbərləri Gürcüstanda həm ikitərəfli, həm üçtərəfli görüşə gələ bilərlər", - deyə o, əlavə edib.

# "Biz Azərbaycanla uzunmüddətli strateji tərəfdaşlıq və dostluq arzu edirik"

Bu sözləri Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Tbilisidə mətbuata bəyanatla çıxış edərkən deyib.

**O, bildirib:** "Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır, dost ölkədir. Bizim ölkələrimiz arasında əsrlər boyu dostluq və qardaşlıq münasibətləri olub. Xalqlarımız arasında ənənəvi dostluq davam edir və cənab Prezident İlham Əliyev bu işə çox böyük töhfə verib. Bu dostluğun və qardaşlığın möhkəmləndirilməsində onun böyük xidmətləri var.

Biz, həmçinin iqtisadi əlaqələri və ticarəti müzakirə etdik. Enerji, nəqliyyat və logistika sahələrində əməkdaşlığı nəzərdən keçirdik. Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşlarından biridir və hər il ilk beşlikdə yer alır. Bu il bizim ticarətimizin həcmi 15 faiz artmışdır. Ötən il də rekord göstəricilərə nail olmuşuq. Yəni, biz hər bir sahədə uğurla əməkdaşlıq edirik. Dəmir yolları sahəsində də əməkdaşlıq uğurla davam edir.

Biz Orta Dəhliz layihəsinin inkişaf perspektivlərini nəzərdən keçirdik. Bildiyiniz kimi, biz işlərimizi Azərbaycanla və Qazaxıstanla əlaqələndiririk ki, bu layihə ən səmərəli şəkildə icra edilsin. Buraya dəmir yollarının müasirləşdirilməsi, limanların inşası və genişləndirilməsi, avtomobil yollarının inkişafı və müasirləşdirilməsi daxildir. Bilirəm ki, Azərbaycan da bu istiqamətdə genişmiqyaslı işlərə başlayıb. Biz Gürcüstanda dəmir yollarının müasirləşdirilməsinə başlamışıq. Bu iş 2024-cü ilin sonunadək başa çatdırılacaq və onun yükdaşıma qabiliyyəti iki dəfə artırılacaq.

Biz, həmçinin tezliklə Anakliyada yeni limanın inşasına başlayacağıq. Onun sonuncu mərhələsi hazır olandan sonra limanın yükaşırma qabiliyyəti 100 milyon ton olacaq. Bununla yanaşı, Şərq-Qərb magistral yolunun tikintisi də tezliklə yekunlaşacaq. Əlbəttə ki, biz bütün bu layihələr üzrə Azərbaycanla əməkdaşlıq edirik. Daha bir tarixi layihənin icrası da bir neçə aya başa çatacaq. Mən Baku-Tbilisi-Qars layihəsini nəzərdə tuturam, orada işlər uğurla davam edir və bir neçə aydan sonra bitəcək".

# "Əsrlər boyu bizim xalqlarımız mehriban qonşuluq və dostluq şəraitində yaşamışdır,bu gün də bu, belədir"



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Tbilisidə mətbuata bəyanatla çıxış edərkən deyib.

O, bildirib: ***"Bu, həm ölkələrimiz üçün vacibdir, eyni zamanda, bölgə üçün, o cümlədən ilk növbədə Cənubi Qafqaz üçün çox vacib olan bir şərtdir".***

Dövlət başçısı Ulu Öndər Heydər Əliyevin xatirəsinə Gürcüstan hökuməti və xalqı tərəfindən göstərilən hörmətə görə təşəkkürünü bildirmiş, demişdir: "Bu il ilboyu Azərbaycanda, bir çox ölkələrdə, o cümlədən Gürcüstanda Heydər Əliyevin 100 illiyi qeyd edilir. Bu gün burada nümayiş etdirilən sərgidə bir şəkil diqqətimizi daha çox cəlb etdi, Heydər Əliyev və Eduard Şevardnadzenin şəklidir. Onların dostluğunun çox böyük tarixçəsi var. Sovet dövründə onlar bir-birilə sıx təmasda idilər və o vaxt sovet Gürcüstanının, sovet Azərbaycanının rəhbərləri kimi xalqlarımızı daha da birləşdirmək üçün böyük səylər göstərmişdilər. Bu iki parlaq şəxsiyyət sovet dövründə də öz istedadı, öz cəsarəti və öz xalqlarına olan bağlılığı ilə fərqlənirdi. Tale elə gətirdi ki, onlar təxminən eyni vaxtda müstəqil Gürcüstana və müstəqil Azərbaycana rəhbərlik etməyə başladılar. Xalqlarımız üçün ən ağır dövrdə, - o acı və ağrılı günləri biz xatırlayırıq, - məhz onların liderliyi sayəsində həm Gürcüstan, həm Azərbaycan inamla müstəqilliyə doğru addımlamağa başlamışdır. Məhz onların fəaliyyəti nəticəsində müstəqil Gürcüstan, müstəqil Azərbaycan inkişaf etməyə başlamışdır.

Biz - onların davamçıları, bu gün onların yolu ilə gedirik".

# "Cənubi Qafqazda sülhün bərqərar olmasının vaxtı çatıb"

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Tbilisidə mətbuata bəyanatla çıxış edərkən deyib.

O, bildirib: "***Biz hər zaman bir-birimizin ərazi bütövlüyümüzü, suverenliyimizi dəstəkləmişik və dəstəkləyirik. Bütün beynəlxalq təşkilatlarda xalqlarımızın bu və digər maraqlarını əks etdirən məsələlərdə bir-birimizi dəstəkləyirik və bir-birimizin yanındayıq. Ölkələrin ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir və ərazi bütövlüyünün pozulması qəbuledilməzdir. Azərbaycanın bu məsələ ilə bağlı mövqeyi birmənalıdır***".

# "Bizim digər sahələrdəki əməkdaşlığa dair, həm enerji, həm nəqliyyat sahəsində çox böyük planlarımız var"

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Tbilisidə mətbuata bəyanatla çıxış edərkən deyib.

**O, bildirib:** "Həyata keçirilmiş layihələr haqqında danışmaq, hesab edirəm ki, əbəsdir, bunu hər kəs bilir. Sadəcə olaraq onu demək istəyirəm ki, bizim birgə həyata keçirdiyimiz enerji və nəqliyyat layihələri bu gün bir çox ölkələrin enerji və nəqliyyat təhlükəsizliyinə xidmət göstərir.

Həmçinin gələcək planlarımız üzrə birmənalı əməkdaşlığın dərinləşməsinə hesablanmış gündəlik vardır. Biz böyük məmnuniyyətlə Gürcüstanın yeni infrastruktur layihələrinin yaranmasında iştirak edə bilərik. Bu gün biz Anakliya limanının inşası ilə bağlı fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, Azərbaycanın Gürcüstanın Qara dəniz sahilində Kulevi limanı var, o limanın genişləndirilməsi, əlbəttə ki, əməkdaşlığımızı daha da gücləndirəcək. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılması və yaxın gələcəkdə fəaliyyətə başlaması da, əlbəttə, Orta Dəhlizin güclənməsinə xidmət göstərəcək.

Energetika sahəsində ənənəvi sahələrdən başqa bu gün bizi birləşdirən "Yaşıl enerji dəhlizi" layihəsidir.

Burada da biz - yenə də Gürcüstan və Azərbaycan - iki qardaş ölkə Avropa ölkələri ilə sıx əməkdaşlıq edirik və yaxın aylarda bu layihənin texniki-iqtisadi əsaslandırması hazır olacaq. Əminəm ki, ondan sonra biz konkret işlərə start verə bilərik.

Böyük sərmayə qoyuluşu nəzərdə tutulur və beləliklə, "Yaşıl enerji dəhlizi", enerji kabeli inşa edilərək həm bizim, həm də ki, tərəfdaş ölkələrin enerji təhlükəsizliyini gücləndirəcək.

# "Cənubi Qafqazda dinc həyat qurulmasının vaxtı gəlib çatıb"

"Bakı ilə İrəvan tərəfindən iki ölkənin suverenliyinin qarşılıqlı şəkildə tanınmasının ardından Cənubi Qafqazda dinc həyat qurulmasının vaxtı gəlib çatıb".

Bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov oktyabrın 10-da dərc olunmuş "BMT Nizamnaməsinin prinsiplərinə onların bütün məcmusu və qarşılıqlı əlaqələri ilə əməl edilməsi beynəlxalq sülhün və sabitliyin rəhnidir" adlı məqaləsində yazıb.

Rusiyalı nazir hesab edir ki, hazırda Brüssel öz siyasi ambisiyaları fonunda Azərbaycan və Ermənistana "vasitəçilik xidmətləri" üzrə şərtlərini diktə edir və Vaşinqtonla birlikdə Cənubi Qafqaza qeyri-sabitlik gətirir.

Sergey Lavrov qeyd edib: ***"İrəvan və Bakı rəhbərlərinin öz aralarında iki ölkənin suverenliyinin qarşılıqlı olaraq tanınması məsələsinin nizamlandığı bir şəraitdə dinc həyat qurulmasının, etimadın möhkəmləndirilməsinin vaxtı gəlib çatıb. Rusiyanın sülhməramlı kontingenti bu prosesə hər cür dəstək verməyə hazırdır".***



# Qarabağda Rusiya sülhməramlılarının fəaliyyəti yeni şəraitə uyğunlaşdırılacaq

"Rusiya sülhməramlı kontingentinin Qarabağda yerləşməsi şərtlərində ciddi dəyişikliklər edilib.

Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib".

O deyib: "Rusiya sülhməramlı kontingentinin regionda yerləşməsi şərtlərində ciddi dəyişikliklər edilib, sülhməramlıların fəaliyyəti yeni şəraitə uyğunlaşdırılacaq".

M.Zaxarova xatırladıb ki, hazırda Rusiya sülhməramlılarının bir neçə stasionar və müvəqqəti müşahidə postları bağlanılıb. O əlavə edib: "Bizim sülhməramlılara aid prinsipial məsələlər Bakı ilə müzakirə olunur. Rusiya, Azərbaycan və Ermənistan arasında danışıqların yeni raundunun keçirilməsi imkanları və tarixi barədə mütləq məlumat verəcəyik".

# Azərbaycanı tarixinin ən güclü dövlətinə çevirən uğurlu siyasət



İqtisadi inkişaf siyasi amillərdən bilavasitə asılıdır. Azərbaycanda mövcud siyasi mühit iqtisadi inkişaf üçün müsbət təsirə malikdir. Belə ki, güclü dövlət və güclü siyasi hakimiyyət milli iqtisadiyyatını formalaşdıran bir ölkə üçün prinsipial əhəmiyyət kəsb edir. İqtisadiyyat və siyasətin qarşılıqlı əlaqəsinə dair Prezident İlham Əliyevin fikirləri xüsusi olaraq maraq doğurur: *"İqtisadi inkişaf, siyasi inkişaf, cəmiyyətin demokratikləşməsi prosesi - bunlar hamısı paralel getməlidir... İqtisadi islahatlar və siyasi islahatlar ölkəmizin inkişafı üçün çox möhkəm zəmin yaradır. Biz bu iki amili bərabər, paralel şəkildə həyata keçiririk və bu gözəl zəmin əsasında güclü dövlət quruculuğu prosesi gedir... İndi dünyada gedən proseslər onu göstərir ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələr dünyada öz yerini daha da möhkəm tuturlar, öz siyasətini daha da cəsarətlə aparırlar... İqtisadi müstəqillik ölkəmizin siyasi müstəqilliyinə öz töhfəsini verir. İqtisadi cəhətdən heç kimdən asılı olmayan ölkə öz siyasətini də müstəqil şəkildə apara bilər və Azərbaycanın timsalında biz buna görürük".*



Dünya təcrübəsi də göstərir ki, azad iqtisadiyyatın inkişafına yönəldilmiş islahatlar kursunun ardıcıl davam etdirilməsi güclü siyasi hakimiyyət sayəsində mümkün olur. Bu baxımdan Azərbaycanda iqtisadi inkişaf proseslərinin dönməz xarakter almasında Prezident İlham Əliyevin iradəsi və prinsipiallığı, xalqın ona inamı və davamlı dəstəyi həlledici rol oynamışdır. Bütün bunların nəticəsi kimi Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən sonra ölkəmizdə iqtisadi quruculuq prosesi geniş vüsət almışdır. Tarixi reallıqlar ondan ibarətdir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatın dinamik inkişafı, dayanıqlı makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadiyyatın daha sürətlə şaxələndirilməsinə nail olmaq üçün mühüm proqramlar qəbul olunmuşdur. Ən əsası, Azərbaycan heç bir beynəlxalq donor təşkilatından asılı olmadan milli iqtisadiyyatını inkişaf etdirmək gücündə olan dövlətə çevrilmişdir. Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nəticələr beynəlxalq hesabatlarda da əksini tapmış, müxtəlif meyarlar üzrə reytinq cədvəllərində ölkəmizin mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

44 günlük Vətən müharibəsinin yekunu ölkəmizin iqtisadi, siyasi və hərbi cəhətdən regionda lider, dünya miqyasında böyük nüfuz qazanmış, qətiyyətli mövqeyi olan qüdrətli dövlət olduğunu bir daha təsdiq etmişdir. Həyata keçirilən sosial-iqtisadi inkişaf proqramları sayəsində bütün parametrlər üzrə özünün böyük resurs üstünlüyünü yaratmış Azərbaycan geosiyasi prosesləri öz xeyrinə dəyişməklə yanaşı, regionun iqtisadi coğrafiyasını yeni formata salmışdır.

Prezident İlham Əliyev Zəfər Gününün birinci ildönümündə Şuşada hərbçilər qarşısında çıxış edərkən bu barədə deyib: *"Biz iqtisadiyyatı gücləndirməli idik və yaxşı başa düşürdük ki, buna nail olmasaq, biz düşməni torpaqlarımızdan qova bilməyəcəyik. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi. Çünki əgər biz asılı vəziyyətdə olsaydıq, hansısa başqa böyük dövlətlərdən asılı olsaydıq, heç vaxt bizə imkan verməzdilər ki, biz bu şərəfli missiyanı yerinə yetirək. Ona görə prezident kimi ilk günlərdən iqtisadi müstəqilliyə hesablanmış bütün lazımi addımlar atıldı və qısa müddət ərzində biz buna nail olduq. Bu gün dünya miqyasında iqtisadi potensial baxımından və iqtisadi sabitlik baxımından Azərbaycan birinci sıralardadır. İqtisadi müstəqillik əldə edilməsəydi, siyasi müstəqillikdən söhbət gedə bilməzdi. Biz asılı vəziyyətdə ola bilərdik. Necə ki, bu gün bir çox ölkələr asılı vəziyyətdədir və məhz buna görə öz iradəsini ortaya qoya bilmirlər. Siyasi müstəqillik imkan verdi ki, biz bütün tərəfdaşlarla bərabərhüquqlu, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qura bildik. Beləliklə torpaqlarımızın azad edilməsi üçün əsas şərtlərdən biri təmin edilmişdi."*

## GÜCLÜ AZƏRBAYCAN ORDUSU TARİXİ MİSSİYASINI YERİNƏ YETİRDİ

Güclü ordu dövlətin təməl prinsiplərindən biri, təhlükəsizliyinin əsas təminatçısıdır. Dayanıqlı iqtisadi inkişaf Azərbaycanda bütün sahələrdə olduğu kimi, qüdrətli ordu quruculuğu istiqamətində də genişmiqyaslı tədbirlər həyata keçirməyə imkan vermiş, bu gün ölkəmiz müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələri formalaşdırılmışdır.

Hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı ordu quruculuğu və bu sahədə perspektiv vəzifələr barədə danışan Prezident İlham Əliyev demişdi: *"Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir."*

Azərbaycan Silahlı Qüvvələrinin inkişafına yönəlmiş tədbirlər 2003-cü ildən sonra ardıcıllıqla və uğurla davam etdirilmişdir. Çünki Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşıda dayanan ən əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin daimi olaraq artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsi idi. Bundan irəli gələrək Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində Silahlı Qüvvələrin tərkibindəki bütün qoşunların döyüş imkanlarının artırılması üçün qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirildi. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırıldı. Bu mənada İlham Əliyevin rəhbərliyi ilə əldə olunan inkişafın Azərbaycan nümunəsinin əsas göstəricilərindən biri ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətini artırması idi. Azərbaycanın Cənubi Qafqazın ən qüdrətli ordusuna malik olması yalnız yerli deyil, xarici mütəxəssislər də təsdiq edirlər. Reytinq agentliklərinin hesabatlarında Azərbaycan güclü orduya malik ölkələr sırasında yer alır.

Əməliyyatların ilk günü Füzuli və Cəbrayıl rayonlarının bir neçə kəndi azad olundu. Tezliklə Ermənistanla dövlət sərhəddinə qədər torpaqlarımızın işğaldan azad olunması ilə bütün dünya Azərbaycanın gücünü, işğalçı Ermənistanı ən qısa müddətdə məğlub etmək əzmini gördü. Cəbrayılın, Füzulinin, Qubadlının, Zəngilanın, Xocavənd, Xocalı, Laçın, Tərtər rayonlarının kəndlərinin azad olunması, Xudafərində Azərbaycan bayrağının ucaldılması, İranla dövlət sərhədinə nəzarətin tam təmin edilməsi Azərbaycan Ordusunun möhtəşəm zəfərləri kimi tarixə düşdü. Cəbhənin elə bir sahəsi olmadı ki, əsgərlərimiz hücum əməliyyatında ləngisinlər. Elə bir istiqamət olmadı ki, düşmənin müdafiə mövqelərinin yarılması mümkün olmasın. Bununla yanaşı, əsas olan odur ki, bu şanlı qələbəni Azərbaycan Ordusunun şəxsi heyəti, əsgərlərimiz, zabitlərimiz, gizirlərimiz qazandılar. Hansı hərbi vasitələrdən istifadə etmələrindən asılı olmayaraq, bu qələbə sevincini xalqımıza hərbçilərimiz yaşatdılar.

Savaş meydanının son zirvəsi - alınmaz Şuşa qalasının azad edilməsi ayrıca bir qəhrəmanlıq dastanı, Zəfər xronikasının baş səhifəsidir. Qəhrəman Azərbaycan hərbçiləri, əsgər və zabitləri çətin relyef şəraitində yorulmadan, tərəddüd etmədən addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini misilsiz cəsarət və mərdliklə yarıb keçdilər. Yaralanan və həlak olan döyüş dostlarını yerdə qoymayıb çiyinlərinə alaraq, başlarına yağan güllə yağışı altında sıldırım qayalara dırmaşaraq, əlbəyaxa döyüşlə Şuşanı işğalçılardan azad etdilər.

## İLHAM ƏLİYEVİN UĞURLU VƏ UZAQGÖRƏN DİPLOMATİYASI

Vətən müharibəsində qələbənin əldə edilməsində Azərbaycan Ordusunun şücaəti və qəhrəmanlığı ilə yanaşı, Prezident İlham Əliyevin misilsiz diplomatiyası əhəmiyyətli rol oynamışdır. Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır" çağırışı ilə böyük Zəfərə aparan diplomatiyası Azərbaycanın dünya birliyi tərəfindən



qüdrətli bir ölkə kimi yenidən kəşf olunmasına gətirib çıxarmışdır.

Xatırladım ki, beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqe özündə bir neçə vacib elementi ehtiva etmişdir. İlk növbədə, ölkəmizin ərazi bütövlüyü tanınır və Qarabağın Azərbaycanın tərkib hissəsi olduğu təsdiqlənirdi. İkincisi, işğalın aradan qaldırılması və işğalçı qüvvələrin Azərbaycan ərazilərini tərk etməsi tələb olunurdu. Üçüncüsü, qaçqın və məcburi köçkünlərin öz evlərinə geri qayıtmaq hüququ təsbit edilirdi. Bütün bunlar Azərbaycanın mühüm diplomatik uğurları idi.

Azərbaycanın işğal altında olan ərazilərində işğalçı Ermənistan tərəfindən həyata keçirilən qanunsuz fəaliyyət, o cümlədən işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasətinin aparılması, bu torpaqlardakı Azərbaycan xalqının zəngin tarixi, mədəni, dini irsinin məhv və talan edilməsi, təbii sərvətlərin qanunsuz istismarı, bu ərazilərdəki şəxsi və ictimai mülkiyyətin qanunsuz mənimsənilməsi və digər qeyri-qanuni addımlar da beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan sənədlərdə geniş yer almışdı. Bütün bunlar Azərbaycanın beynəlxalq təşkilatlara çoxsaylı müraciətləri və aparılan uğurlu xarici siyasəti nəticəsində mümkün olmuşdu.

Prezident İlham Əliyev demişdir: *"Biz Qarabağ həqiqətlərini, işğalla bağlı erməni vəhşiliyini dünya ictimaiyyətinə çatdıra bildik. Birinci Qarabağ müharibəsindən sonrakı ilk dövrdə biz buna nail ola bilməmişdik. Ona görə dünyada müharibə ilə bağlı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvür var idi. Biz bunu aradan qaldırdıq. Gecə-gündüz çalışaraq dünya ictimaiyyətini məlumatlandırdıq, aparıcı beynəlxalq təşkilatlarda uğurlu iş apararaq, bizə əl verən və həqiqəti əks etdirən qərar və qətnamələri qəbul etdirdik. Bütün bu işlər bugünkü reallıq üçün hüquqi bazadır. Çünki bu gün biz düşməni torpağımızdan qovandan sonra heç kim bizə irad tuta bilməz. Çünki biz öz torpağımızda uğurlu əməliyyat aparmışıq, biz beynəlxalq hüququ pozmamışıq, müharibə qanunlarını pozmamışıq. Ədalətli müharibə aparmışıq və döyüş meydanında düşməni məğlub etmişik."*

Vətən müharibəsi günlərində bir sıra dünya liderləri ilə aparılan telefon danışıqları, ölkəmizə edilən səfərlər çərçivəsində xarici nümayəndə heyətləri ilə keçirilən görüşlər, beynəlxalq tədbirlərdə iştirak, xarici ölkələrin aparıcı mətbuat nümayəndələrinə verilən çoxsaylı müsahibələr dövlətimizin başçısının Zəfər diplomatiyasının önəmli tərkib hissələrini təşkil edir. Vətən müharibəsi ərzində Türkiyə, Rusiya, İran, Fransa, Almaniya, Qətər, Belarus liderləri, BMT Baş katibi, Avropa İttifaqı Şurasının prezidenti tərəfindən Azərbaycan Respublikasının Prezidentinə telefon zəngləri edilmiş, xarici dövlət və təşkilatların rəhbərləri silahlı qarşıdurma ilə bağlı narahatlıqlarını bildirərək, bölgədəki son vəziyyətlə maraqlanmışlar.

Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır" çağırışı ilə böyük Zəfərə aparan diplomatiyası Azərbaycanın dünya birliyi tərəfindən qüdrətli bir ölkə kimi yenidən kəşf olunmasına gətirib çıxardı.

Bu il sentyabrın 19-dan Azərbaycanın başlatdığı antiterror tədbirləri zamanı tarixdə bənzəri olmayan taktika ilə düşmənə elə zərbə endirildi ki, o həmin zərbədən özünə gələ bilmədi. "Dəmir yumruq" növbəti dəfə düşmənin başını əzdi. Havada tam üstünlük əldə edən Ordumuz ermənilərin kommunikasiya, toplanma məntəqələrinə, silah anbarlarına endirdiyi sarsıdıcı zərbələrlə onları bir sutka ərzində təslim olmağa vadar etdi. Vətən savaşında olduğu kimi lokal antiterror tədbirlərinin keçirilməsi ilə Azərbaycan ikinci dəfə dünya hərb tarixinə öz adını yazdırdı.

Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazisi olan Qarabağda 23 saatlıq lokal antiterror tədbirləri qlobal miqyasda separatizmlə mübarizədə ən effektiv və rasional addım hesab oluna bilər. Xüsusən, separatizmin dünyada iri güclərin əsas nəzarət alətlərindən birinə çevrildiyi, bu sahədə ikili standartların hökm sürdüyü mürəkkəb dövrdə qazanılan bu Qələbə Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun və xalqının birliyinin rəmzidir.

Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində demişdir: *"Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülh, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və ermeni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil - Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!"*

*Mənbə: Ziyad Səmədzadə "Azərbaycan iqtisadiyyatı 100 ildə", V cild*

# Азербайджан обеспечит все права и безопасность своих новых граждан



Права и безопасность лиц, которые станут гражданами Азербайджана, будут обеспечены, заявила председатель Милли Меджлиса Сахиба Гафарова на встрече с председателем Палаты депутатов парламента Румынии Альфредом-Робертом Симонисом.

Отметив, что антитеррористические мероприятия, проведенные Азербайджаном 19–20 сентября в Карабахе, достигли своих целей менее чем за 24 часа, незаконные структуры сепаратистского режима пали, и Азербайджан восстановил свой суверенитет, Сахиба Гафарова довела до внимания собеседника, что уже начата реализация процесса реинтеграции этнических армян Карабахского региона.

За короткое время состоялись три встречи специального представителя правительства Азербайджана с представителями армянских жителей Карабаха.

«Будут обеспечены все права и безопасность лиц, которые станут гражданами Азербайджана», - подчеркнула председатель Милли Меджлиса.

Спикер Милли Меджлиса также отметила, что никто не принуждал этнических армян покидать Карабах.

«Те, кто уехал, сделали это по собственному выбору, и Азербайджан обеспечил безопасность их передвижения», - сказала Сахиба Гафарова.

# ЦБА готовит новую стратегию




Центральный банк в настоящее время разрабатывает отдельную стратегию по финансовому сектору в целом и по каждому подсектору - банковскому, страховому, рынков капитала и платежных систем.

Об этом сказал председатель Центрального банка Азербайджана (ЦБА) Талех Кязымов, сообщает во вторник Trend.

"Вполне возможно, что в следующем месяце мы подробно проинформируем общественность", - сказал он.

Кязымов подчеркнул, что доля страховых взносов в ВВП составляет всего 1,1 процента: "Это достаточно низкий показатель, но считаю, что потенциал высок. Наш основной интерес заключается, прежде всего, в том, чтобы обеспечить более эффективное, прозрачное, ориентированное на потребителя регулирование услуг, оказываемых страховыми компаниями по видам обязательного страхования, в целом по этим видам страхования.

А на втором этапе мы предусматриваем поддержку развития добровольных видов страхования. Ежегодно страховые взносы показывают рост на 25-30 процентов, в страховых выплатах тоже почти такие же показатели".

При этом, по словам председателя ЦБА, необходимо пересмотреть стандарты корпоративного управления страховых компаний.

# Еще одна компания и ИП получили статус резидента Евлахского агропарка



ООО "O BAĞ" и частному предпринимателю Мирсахибу Самедову присвоен статус резидента Евлахского пилотного агропарка.

Как сообщает в понедельник Trend, об этом министр экономики Азербайджана Микаил Джаббаров написал на своей странице в соцсети "Х".

"Резиденты планируют создать интенсивные сады с общим объемом инвестиций 301,3 тысячи манатов на площади 35,4 га. Ожидается, что эта инициатива позволит создать постоянные рабочие места для 8 человек и сезонные рабочие места для 30 человек", - говорится в публикации министра.

Напомним, что в настоящее время в 32 районах Азербайджана продолжаются работы по созданию 51 агропарка. 34 агропарка специализируются на растениеводстве, 14 - на растениеводстве и животноводстве, один - на животноводстве и два - на перерабатывающей промышленности. Из них 44 уже начали свою деятельность, а в других ведутся проектные или строительные работы.

# Предложение на валютном рынке Азербайджана превышает спрос

Как сообщает во вторник Trend, об этом в интервью AzTv сказал председатель Центрального банка Азербайджана (ЦБА) Талех Кязымов. По его словам, за прошедший период 2023 года Центробанк выкупил на рынке 566 миллионов долларов, проведя покупательно-ориентированную интервенцию для поддержания стабильного обменного курса.

Из этой суммы 444 миллиона долларов пришлись на один только сентябрь.

"Доверие населения к манату растет. Поскольку цены на энергоносители высоки, наши валютные доходы растут. Реализация ненефтяного экспортного потенциала обеспечивает приток иностранной валюты в страну. Таким образом, мы видим, что предложение довольно сильно превышает спрос", - добавил Т.Кязымов.

# Эрдоган обсудил с генсеком ООН израильско-палестинский конфликт



Состоялся телефонный разговор между президентом Турции Реджепом Тайипом Эрдоганом и генеральным секретаре ООН Антониу Гутерришем, сообщили в администрации президента Турции, передает Trend.

В ходе встречи обсуждались шаги, которые можно было бы предпринять в рамках израильско-палестинского конфликта. Также состоялся обмен мнениями по мерам, которые можно предпринять для доставки гуманитарной помощи мирному населению региона посредством посреднических усилий Турции.

Подчеркнув, что непропорциональные атаки приведут ситуацию в дальнейшую тупиковую ситуацию, Эрдоган отметил, что сторонам очень важно действовать сдержанно и избегать импульсивных шагов.

Отметим, что утром 7 октября на Израиль была совершена комбинированная атака. С начала с территории сектора Газа начался массированный обстрел реактивными снарядами, затем последовало проникновение боевиков по земле, воде и воздуху. Армия обороны Израиля объявила о состоянии готовности к войне после массированного ракетного обстрела со стороны сектора Газа. Кроме того, министр обороны Израиля Йоав Галант объявил массовый сбор резервистов. Операция израильской армии против ХАМАС носит кодовое называние "Железные мечи".

# Криптовалютные счета ХАМАС заморожены

Об этом сообщила израильская полиция в социальной сети "Х" (Twitter), передает во вторник Trend. "Департамент кибербезопасности израильской полиции в партнерстве с министерством обороны, агентством по безопасности и другими государственными спецслужбами заморозил криптовалютные счета, которые ХАМАС использовал для сбора средств для поддержки своей деятельности", - говорится в сообщении.

Напомним, что утром 7 октября израильская территория подверглась ракетному обстрелу из сектора Газа. В результате более 700 человек погибли и 2 315 получили ранения.

Израильская армия объявила о "состоянии готовности к войне" и в ответ начала операцию "Железные мечи".

# Глава МИД Израиля отказался от предложения Евросоюза



Министр иностранных дел Израиля Эли Коэн отклонил приглашение главы дипломатии ЕС Жозепа Борреля присоединиться к экстренной встрече глав МИД в Омане, сообщил источник The Times of Israel в его офисе.

По словам собеседника издания, пока Израиль «борется с преступным терроризмом и мир безоговорочно поддерживает» его в этом, «нет места теоретическим дискуссиям — только решительная и бескомпромиссная война против палестинского терроризма».

Источник добавил, что Коэн проводит телефонные переговоры с коллегами из европейских стран.

Вечером он также намерен созвониться с главами МИД Непала и Таиланда.

Bangkok Post сообщала, что в Израиле погибли по меньшей мере 18 тайцев.

Также было известно как минимум о 10 погибших гражданах Непала.

# Обнародован первый в истории рейтинг энергетической уязвимости

С этого года впервые в истории вводится в исследовательский оборот так называемый «глобальный индекс энергетической уязвимости». Его целью является исследование международного риска энергетических потрясений. Объектом исследования стали данные из 100 стран по всему миру.

Венгерский журнал Budapest Business Journal, изучив первую в истории рейтинговую таблицу, отмечает в редакционной статье, опубликованной 9 октября, что Венгрия находится в середине списка исследуемых стран.

Авторы исследования уверены, что понимание уязвимости той или иной страны или региона к энергетическим потрясениям служит основой для бизнес-стратегии и позволяет составить оптимальный план поиска источников энергии, а также помогает определить пробелы для инвестиций. В целом, экономики, которые сильно зависят от импорта, с низким внедрением возобновляемых источников энергии, низкой энергоэффективностью и экономической нестабильностью, более уязвимы к энергетическим рискам. Страны, включенные в индекс, были ранжированы на основе шести показателей, связанных с энергетикой, таких как энергетическая самодостаточность, альтернативы ископаемым ресурсам, потенциал энергетических запасов, доступность энергии, энергоэффективность и устойчивость экономики.

Норвегия, Канада, Австралия и Соединенные Штаты занимают верхние строчки индекса благодаря своей высокой энергетической самодостаточности, обилию энергетических ресурсов, разнообразному энергетическому балансу и высокой экономической устойчивости. Как уже отмечалось выше, Венгрия занимает место почти в середине списка - у нее 55-е место из 100 проанализированных стран. Однако эта страна получила не очень высокую оценку в категории энергетической самодостаточности, хоть и довольно высокую по другому показателю - экономической устойчивости.

Беларусь и Ливан занимают нижние места в рейтинге из-за нехватки энергоресурсов, низкой энергоэффективности и экономической неопределенности.

# BP gənc sahibkarlara dəstək verib



BP və tərəfdaşları Biznesin inkubasiyası modelinin tətbiqi vasitəsilə kənd yerlərində gənc sahibkarlara dəstək verib.

Layihənin birinci mərhələsinə 205 min 50, ikinci mərhələsinə 495 min 285 manat məbləğində vəsait ayrılıb.

Qeyd edək ki, birinci mərhələdə Samux, Goranboy və Şəmkirdən seçilmiş 30 gəncə biznes qurulması və idarə edilməsi qaydaları üzrə təlim keçirilib. İki benefisiarın birgə biznes planı da daxil olmaqla, 29 biznes plan işlənərək hazırlanıb. Bütün benefisiarlar biznes planlarına uyğun olaraq lazımi avadanlıqlarla təchiz edilib, o cümlədən 3 gözəllik salonu, 1 təkər təmiri məntəqəsi, 1 avtomobil təmiri məntəqəsi, foto və video studiyası, 1 kompüter kursu, 4 ev təmiri və bina tikintisi ofisi, 1 pərakəndə satış mağazası, 1 arıxana, 17 heyvandarlıq təsərrüfatı avadanlıqla təmin edilib.

İkinci mərhələdə 65 benefisiar biznesin qurulması və idarəedilməsi qaydaları üzrə təlim keçib. Hazırda biznes planları əsasında 65 iştirakçıya avadanlıq və digər materiallarla dəstək hər benefisiar üçün 4 min manat dəyərindədir. Əlavə olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən seçilmiş 25 nəfər həmin təlimlərdə iştirak edəcək.

# Almaniyanın Şərqi Biznes Assosiasiyası ilə ticarət əlaqələrinin genişləndirilməsi müzakirə olunub




Almaniyada işgüzar səfərdə olan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms ilə görüşüb.

KOBİA-dan bildirilib ki, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun rəhbəri Yusif Abdullayevin də iştirak etdiyi görüşdə ticarət əlaqələrinin genişləndirilməsinə, innovasiyaların təşviqinə və əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

# Naxçıvanda vergi xidmətlərindən istifadə səviyyəsi artır



Naxçıvan Şəhər Vergilər İdarəsinin 2023-cü ilin may ayında istifadəyə verilmiş Vergi ödəyicilərinə xidmət mərkəzi tərəfindən may-sentyabr ayları ərzində ümumilikdə 8.065 sayda qəbul həyat keçirilib.

Dövlət Vergi Xidmətindən bildirilib ki, mərkəzdə vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar sualların cavablandırılması, vergi uçotu və qeydiyyat, bəyannamələrin, cari vergi ödəmələrinin hesablanması və sair məsələlərlə bağlı 11.850 xidmət göstərilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə göstərilən xidmətlərin sayından 3 dəfə çoxdur. Hesabat dövründə mərkəz tərəfindən 1.547 müraciət üzrə 3.674 "ASAN İmza" sertifikatı verilib. Bu, ötən ilin eyni dövrünə nisbətən müraciət edənlərin sayında 2,8 dəfə, təqdim olunan "ASAN İmza" sayında isə 4,4 dəfə artım deməkdir.

# Əmək müqavilələrinin sayı artıb

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən iş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun "ağardılması" və şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin nəticəsi olaraq, bağlanmış əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 368,3 min vahid artıb.

Dövlət Vergi Xidmətindən bildirilib ki, bu ilin oktyabr ayının 1-nə əmək müqavilələrinin sayı 1770,3 minə çatıb.

Qeyri-neft sektorunun özəl bölməsində isə həmin göstərici 340,9 min artaraq 880,8 min olub.

# Azərbaycanın strateji valyuta ehtiyatları $67.5 mlrd.-a çatıb

Dünya neft qiymətlərinin yüksək olmasını və qeyri-neft ixracının artmasını nəzərə alsaq, Azərbaycanın cari əməliyyatlar balansı profisitlidir. Bunu Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov deyib. O bildirib ki, bu da öz növbəsində ölkənin strateji valyuta ehtiyatlarına təsir edib.

"Ölkənin strateji valyuta ehtiyatları bu ilin avqust ayında 14.5% artaraq 67.5 milyard ABŞ dollarına çatıb"- AMB sədri əlavə edib. "O cümlədən, hesabat dövründə AMB-nin valyuta ehtiyatları 4%-dən çox artaraq 9,8 milyard dollara yüksəlib", - o qeyd edib.

# Cari ildə 62.5 min unsiya qızıl hasilatı və ixracı planlaşdırılıb

2023-cü ilin yanvar-sentyabr aylarında "AzerGold" QSC tərəfindən 38.3 min unsiya qızılın hasilatı, 36.4 min unsiya qızılın ixracı həyata keçirilib. QSC-dən bildirilir ki, bununla cari ilin ilk 9 ayı üçün müəyyənləşdirilmiş qızıl hasilatı planı 6 faiz, qızıl ixracı planı isə 30 faiz artıq icra edilib. Ümumilikdə, cari il üzrə 62.5 min unsiya qızıl hasilatı və ixracı planlaşdırılıb ki, bu da ötən ilin göstəriciləri ilə müqayisədə hasilatda 1 faiz, ixracda isə 4.4 faiz daha çoxdur.

# İcbari sığorta növlərinin istehlakçı yönümlü olması təmin edilməlidir

"Azərbaycanda sığorta sektorunun həcmi kifayət qədər kiçik olsa da, potensialı yüksəkdir. Sığorta haqlarının ÜDM-də payı cəmi 1.1%-dir. Bizim əsas marağımız ilk mərhələdə icbari sığorta növləri üzrə sığorta şirkətlərinin göstərdiyi xidmətlərin daha şəffaf, daha istehlakçı yönümlü olmasını təmin etməkdir. İkinci mərhələdə isə könüllü sığorta növlərinin inkişafına dəstək verməliyik".

Bunu Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov deyib.

"İcbari sığorta növləri üzrə fokuslanmalıyıq. Əhalinin əksər hissəsi bu sığorta məhsulları ilə rastlaşır və burda istehlakçıların hüquqları müdafiə olunmalıdır", – deyə o əlavə edib.



# Maliyyə Nazirliyi fond bazarından 90 mln. vəsait cəlb edib

10 oktyabr 2023-cü il tarixində Bakı Fond Birjasında Maliyyə Nazirliyinin AZ0201040257 ISIN-li, 90 mln. manat həcmində, 1 092 gün (3 il) olan tədavül müddətli Kuponlu, Dövlət Ortamüddətli İstiqrazlarının (DOİ) yerləşdirilməsi üzrə hərrac keçirilib.

Bu barədə BFB-dən bildirilib.

Hərrac zamanı 25 investor tərəfindən qiymət intervalı 92,3864 (10%) manat və 97,4333 (7.9789%) manat olan 63 sifariş təqdim edilib.

Maliyyə Nazirliyinin qərarına əsasən istiqrazların kəsmə qiyməti 95,8722 (8.59%) manat, orta ölçülmüş qiyməti 96,8022 (8.2245%) manat müəyyən edilmişdir. Sifarişlərin nominal qiymətlə ümumi məbləği 170 658 300 manat, yerləşdirilmiş həcmi isə 90 000 000 manat təşkil edilmişdir.

Hərrac iştirakçıları 11 oktyabr 2023-cü il tarixinədək istiqrazların alışı üzrə öhdəliklərini icra etməlidirlər.

Qeyd edək ki, hərrac zamanı dövlət istiqrazlarına tələb təklifi üstələyəcəyi və qiymət emitenti qane edəcəyi halda emitent tərəfindən təklif edilən istiqrazların həcmi 50 faizədək artırıla bilər.



# Ticari sektorda ödəniş daxilolmaları 7.2 milyard manat olub

2023-cü ilin üçüncü rübündə ödəniş daxilolmalarında qeyri-ticari sektorun üstünlüyü davam edib.

Ticari sektorda ödəniş daxilolmaları ümumi daxilolmaların 19.4 faizini təşkil etməklə 7.2 milyard manat, qeyri-ticari sektorda isə 80.6 faizini təşkil etməklə 29.7 milyard manat olub.

Bütövlükdə, ötən rüblə müqayisədə cari ilin üçüncü rübündə ticari sektor üzrə iqtisadi aktivlik indeksində azalma, qeyri-ticari sektor üzrə isə artım dinamikası müşahidə edilib.

# Azərbaycanda vergi daxilolmaları artıb



"Bu ilin yanvar-sentyabr aylarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə ötən ilin eyni dövrü ilə müqayisədə 22,6% çox - 12 milyard 810,7 milyon manat vəsait daxil olub".

Bunu nazir Mikayıl Cabbarov "X" (tvitter) sosial şəbəkə hesabında bildirib. "O cümlədən, son 1 ildə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 19,3% artaraq 7 milyard 425,8 milyon manata çatıb. Daxilolmalarda müsbət dinamikanı saxlamaq üçün biznes mühitinin şəffaflaşdırılması və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində fəaliyyətimiz davamlı olacaq", - deyə o, qeyd edib.

# AZAL Bakıdan Pekinə uçuşlara başlayır




Azərbaycanın milli aviadaşıyıcısı Bakı-Pekin-Bakı marşrutu üzrə uçuşlara başlayır.

AZAL-dan AZƏRTAC-a bildirilib ki, bu istiqamətdə ilk reys dekabrın 19-na planlaşdırılıb. Bakıdan Pekinə və əks istiqamətdə uçuşlar həftədə iki dəfə - çərşənbə axşamı və bazar günləri yerinə yetiriləcək.

Qeyd edək ki, Çinə hava yolu ilə səyahət etməzdən əvvəl sağlamlıq anketini doldurmaq və əldə olunan QR-kodu mobil cihazda saxlamaq zəruridir. Bu QR-kodun olması həm Bakıda, həm də Pekində uçuşa minmək üçün mütləq şərtdir.

İki paytaxt arasında uçuşların başlanması qərarı səyahətə artan tələbatın ödənilməsi və Azərbaycan və Çin arasında dinamik inkişaf edən əlaqələrin gücləndirilməsi məqsədi daşıyır.

AZAL-ın bu və digər reyslərinə aviabiletləri rəsmi www.azal.az saytından, həmçinin aviaşirkətin akkreditə olunmuş agentliklərindən əldə etmək olar.

# "AzerGold" sentyabrda ölkə iqtisadiyyatına 43 milyon 210 min manat vəsait cəlb edib

"AzerGold" QSC sentyabr ayında icra etdiyi iki ixrac əməliyyatı nəticəsində xarici bazarda 13.3 min unsiya qızıl və 15.8 min unsiya gümüşün satışına nail olub.

Bu ixrac əməliyyatları nəticəsində "AzerGold" fəaliyyət dövrü üçün aylıq rekord məbləğdə - 43 milyon 210 min manat vəsaiti ölkə iqtisadiyyatına cəlb edib.



# KOBİA rəhbərliyi Berlində keçirilən Kiçik və Orta Müəssisələr üçün Beynəlxalq Şəbəkənin toplantısına qatılıb



Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) rəhbərliyi Berlində keçirilən Kiçik və Orta Müəssisələr üçün Beynəlxalq Şəbəkənin (INSME) 19-cu İllik Toplantısına qatılıb. KOBİA-dan bildirilib ki, "KOB-ların gələcək uğurlarında rəqəmsal transformasiya" mövzusunda paneldəki çıxışında agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov qurum tərəfindən KOB-lara göstərilən dəstək və xidmətlərin elektronlaşdırılması, onların innovativ təşəbbüslərinin dəstəklənməsi barədə məlumat verib.

Qeyd edilib ki, sahibkarlara vahid məkanda dövlət və özəl qurumlar tərəfindən xidmətlərin göstərildiyi KOB evlərinin "E-KOB evi" rəqəmsal platformasına keçirilməsi istiqamətində tədbirlər davam etdirilir. KOBİA tərəfindən verilən sahibkarların innovativ təşəbbüslərinə vergi güzəştlərini nəzərdə tutan "Startap" şəhadətnaməsindən, təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə qrant dəstəyindən faydalanan KOB-ların sayı artmaqdadır. KOBİA sahibkarlara ödənişsiz olaraq digər mövzularla yanaşı, biznesin elektronlaşdırılması, bu sahədə rəqəmsal həllər, e-ticarət barədə məsləhət və təlim xidməti göstərir.

# Azərbaycan İnvestisiya Şirkətinin nizamnamə kapitalı 25 faiz azaldılıb

AZƏRBAYCAN İNVESTİSİYA ŞİRKƏTİ

Dövlətə məxsus "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin nizamnamə kapitalı azaldılıb.
AIC-in nizamnamə kapitalı 66 197 800 manat və ya 24.8% azaldılaraq 200 802 200 manat təşkil edib. Qeyd edək ki, AIC-in nizamnamə kapitalı 2023-cü ilin əvvəli 224 milyon manatdan 267 milyon manata çatdırılmışdı. Şirkət Prezidentin müvafiq sərəncamı ilə 2006-cı ildə yaradılıb. AIC-in bütün payları Azərbaycan dövlətinə məxsusdur. Şirkət Müşahidə Şurası tərəfindən idarə edilir. AİŞ-in məqsədi Azərbaycan Respublikasının qeyri-neft sektoruna kapital investisiyalarının yatırılmasıdır.










# 2021-ci ildən TAP vasitəsilə qaz tədarüklərinin həcmi məlum olub

"31 dekabr 2020-ci ildə kommersiya istismarı başladıqdan sonra Trans-Adriatik qaz kəməri (TAP) vasitəsilə Avropaya 28 milyard kubmetrdən artıq qaz nəql olunub".



Bunu TAP-ın icraçı direktoru Luka Skyepatti İtaliya mediasına müsahibəsində deyib.
O qeyd edib ki, İtaliyanın payına bu həcmin 23,5 milyard kubmetri düşür.
"TAP daşıma üzrə uzunmüddətli öhdəlikləri yerinə yetirməklə və qısamüddətli imkanları maksimallaşdırmaqla tədarüklərin etibarlılığını möhkəmləndirib və sistemin likvidliyini artırıb", - Skyepatti deyib.
İcraçı direktorun fikrincə, TAP-ın imkanlarının ikiqat artırılması enerji keçidini dəstəkləməyə imkan verəcək və eyni zamanda, davamlı və rəqabətqabiliyyətli tədarüklərin təhlükəsizliyini təmin edəcək.
Xatırladaq ki, Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan TAP vasitəsilə hər il İtaliyaya səkkiz milyard kubmetr, Yunanıstan və Bolqarıstanın hər birinə isə bir milyard kubmetr həcmində qaz nəql olunur.

# Azərbaycan Ukraynaya elektrik paylayıcı şəbəkələrin bərpası üçün avadanlıq göndərəcək




"Azərbaycan Ukraynaya elektrik paylayıcı şəbəkələrin bərpası üçün avadanlıq göndərməyi planlaşdırır".
Bu barədə Ukraynanın energetika naziri German Qaluşenko ilə Azərbaycanın Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Seymur Mərdalıyevin görüşündə məlum olub.
Səfir xatırladıb ki, Prezident İlham Əliyev iyulun ortalarında Azərbaycanın Energetika Nazirliyinə 7,6 milyon dollar vəsait ayrılmasına dair sərəncam imzalayıb. Vəsaitin Ukraynaya humanitar yardım üçün sərf olunması nəzərdə tutulub. Bununla əlaqədar olaraq, yaxın zamanda Ukraynaya elektrik paylayıcı şəbəkələrin bərpası üçün avadanlıqların göndərilməsi planlaşdırılır.
German Qaluşenko Azərbaycana Ukraynanın enerji sektoruna göstərdiyi və xüsusən ötən qış Ukraynanın enerji sistemini dəstəkləməyə kömək etmiş yardıma görə minnətdarlıq edib.
"Azərbaycanla enerji sektorunda əməkdaşlığımızı yüksək qiymətləndiririk və bu əməkdaşlığın güclənəcəyinə çox ümid edirik", - deyə ukraynalı nazir deyib.
Ukraynanın Energetika Nazirliyindən, həmçinin ölkənin Azərbaycandan enerji sektoru üçün 50 ehtiyat elektrik stansiyası və 45 güc transformatorundan ibarət 10 humanitar yardım aldığını qeyd edib.

12-18 oktyabr 2023-cü il

# “BQ AQRO” QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Torpaq tikili və avadanlıqlar | 7 | 986 284 | 945 127 |
| Daşınmaz əmlaka investisiyalar | | | |
| Qeyri-maddi aktivlər | 8 | | |
| Kapitallaşma | 9 | | |
| Təxirə salınmış vergi aktivləri | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **986 284** | **945 127** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | 10 | 0 | 0 |
| Qısamüddətli debitor borcları | 12 | 1 061 555 | 448 833 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 14 | 8 516 | 367 485 |
| Sair qısamüddətli aktivlər | 11 | 5 583 525 | 6 114 879 |
| **Cəmi qısamüddətli aktivlər** | | **6 653 596** | **6 931 197** |
| **CƏMİ AKTİVLƏR** | | **7 639 880** | **7 876 324** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 15 | 6 154 000 | 6 154 000 |
| Digər ehtiyatlar | | | |
| Emissiya gəliri | | | |
| Geri alınmış kapital (səhmlər) | | | |
| Kapital ehtiyatları | 16 | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 16 | 528 799 | 194 545 |
| **CƏMİ KAPİTAL** | | **6 682 799** | **6 348 545** |
| **Öhdəliklər** | | | |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | | |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| Qısamüdətli kreditor borcları | 20 | 89 751 | 2 836 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 18 | 23 187 | 0 |
| Sair qısamüdətli öhdəliklər | 21 | 844 142 | 1 524 943 |
| Qiymətli kağızlar | 17 | | |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **957 081** | **1 527 779** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **957 081** | **1 527 779** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **7 639 880** | **1 527 779** |

| MƏNFƏƏT VƏ ZƏRƏRLƏR | Qeyd | 31 dekabr 2021 - ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 20 | 2 888 203,00 | 2 151 273,00 |
| Satışın maya dəyəri | 24 | -530 257,00 | -1547933,00 |
| **Ümumi mənfəət (zərər)** | | 2 357 946,00 | **603 340,00** |
| Kommersiya xərcləri | 25 | -1228668,00 | -1379776,00 |
| İnzibati xərclər | 26 | -4 055,00 | -4 350 |
| Sair əməliyyat xərcləri | 27 | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **1 125 223,00** | **-780 786,00** |
| Sair əməliyyat gəlirləri | 21 | | |
| Maliyyə xərcləri | 29 | | |
| Fövqəladə gəlirlər | 22 | | |
| Fövqəladə xərclər | 23 | | |
| Məzənnə fərqi (mənfi) | 30 | | |
| Vergidən azad olan gəlirlər üzrə xərclər | | 1762979,00 | 2 932 059,00 |
| Vergidən azad olan gəlirlər | 28 | 2888203,00 | 2 151 273,00 |
| Məzənnə fərqi (müsbət) | 22 | | |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **1125223,00** | **-780 786,00** |
| **Keçmiş illərin zərərinə silinmişdir** | | | |
| Mənfəət vergisi | 31 | | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 31 | **1 125 223,00** | **-780 786,00** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| **Səhmdarların payı** | | | |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | | |
| **Bir səhmin əsas mənfəəti** | | | |

| PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | | | |
| **Hesabat dövründə xalis mənfəət /zərər** | **32** | 1 125 223,00 | -780786,00 |
| Mənfəət vergisi üzrə xərclər | 35 | | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| **Əsas vəsaitlərin amortizasiyası** | 7 | | |
| Əsas vəsaitlərin satışından və xaric olmasından gəlirlər/zərərlər | | 74236,00 | 69 040,00 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 8 | | |
| Kapitallaşma | | | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | | |
| **Təxirə salınmış vergi aktivləri üzrə artma azalma** | | | |
| Ehtiyatlar üzrə artma/azalma | 10 | | |
| Debitor borcları üzrə artma/azalma | 12 | -934 775,00 | 612 722,00 |
| Sair aktivlər üzrə artma/azalma | 11 | | -531 354,00 |
| Cari vergi öhdəlikləri üzrə artma/azalma | 17 | 23 187 | -23 187,00 |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | 20 | -2 050,00 | -86 915,00 |
| Əlaqəli tərəflərə olan borclar | | | |
| Sair qısamüddətli öhdəliklər | 20 | 107 642,00 | 680 801 |
| Ödənilmiş gəlir vergisi | | | |
| Sair | | -66 018,00 | 446 531,00 |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **327 445,00** | **386 852,00** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | | -324 020,00 | -27 883 |
| Qeyri-maddi aktivlərin alınması | | | |
| Xaric olmuş əsas vəsaitlərin qalıq dəyəri | | | |
| Daşınmaz əmlaka yönəldilən investisiyalar üzrə fərq | | | |
| Alınmış faiz şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **-324 020,00** | **-27 883** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| İnvestisiya | | | |
| Ödənilmiş dividendlər | | - | |
| Digər ehtiyatlar | | | |
| ***Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | | |
| ***Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)*** | | **3 425,00** | **358 969,00** |
| ***İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları*** | | **5 091,00** | **8 516,00** |
| ***İlin sonuna pul vəsaitləri və bank overdraftları*** | | **8 516,00** | **367 485,00** |
| ***İl ərzində artım/azalma*** | | **3 425,00** | **358 969,00** |

| KAPİTALDA DƏYİŞİKLİKLƏR | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **01 dekabr 2021-ci il tarixə qalıq** | **14** | **6 154 000** | | **-530 315,00** | **5 623 685,00** |
| 2021-ci il üzrə xalis mənfəət (zərər) | 31 | | | 1 125 223 | **1 125 223** |
| Kapital ehtiyatları | | | | | **0** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | |
| Elan edilmiş dividendlər | | | | | **0** |
| Sair | | | | -66 109 | **-66 109** |
| **31 dekabr 2021-ci il tarixə qalıq** | **14** | **6 154 000** | **0** | **528 799,00** | **6 682 799,00** |
| 2022-ci il üzrə xalis mənfəət (zərər) | 31 | | | -780 786,00 | **-780 786,00** |
| Kapital ehtiyatları | | | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | |
| Elan edilmiş dividendlər | | | | | **0** |
| Sair | | | | 446 532,00 | **446 532,00** |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | **14** | **6 154 000** | **0** | **194 545,00** | **6 348 545,00** |

## “KH.J.A AUDİT-CONSULTİNQ XİDMƏTİ” MMC

**Baku, Azerbaijan, Babak ave. 95, apt. 122; mobile: (+99450) 394-66-02**
**xaladdin-aliyev@mail.ru VÖEN; 1604961411**
**İCAZƏ A/T 256; 25 noyabr 2022-ci il**

**“ BQ AQRO ” Qapalı Səhmdar Cəmiyyətinin Rəhbərliyinə**
**Müstəqil auditorun hesabatı**

**Rəy** ehWJe50GO8

Mən “BQ AQRO ” QSC-nin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.
Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**Rəy üçün əsaslar**
Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun olaraq yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**
Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**
Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edir və peşəkar şəffaflıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqiliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarmdakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrin auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən Direktora digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.
Mən həmçinin Direktora bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.
Direktorun nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməninin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandınlmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatımda təsvir edirəm.
Hesabat 21.09.2023-cü il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri **“BQ AQRO”QSC–nin** rəhbərliyinə təqdim edilir, ikincisi isə auditor təşkilatında saxlanılır.

**“KH.J.A Audit-Consultinq Xidməti”MMC**
**Direktor- auditor:** **X.C.Əliyev**

**21 sentyabr 2023-cü il**

# Sosial sığorta haqları üzrə daxilolmalar artıb



Bu ilin yanvar-sentyabr ayları ərzində muzdlu işçi sayının və əməkhaqqı fondunun “ağarması” prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 3,7 milyard manatdan çox olub.
Banker.az xəbər verir ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən verilən məlumata görə, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz və ya 462,4 milyon manat artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 14,8 faiz artaraq 2,4 milyard manat təşkil edib.
İşsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrünə nisbətən 15,1 faiz artıb və 132,8 milyon manat olub. Öz növbəsində qeyri-büdcə təşkilatları üzrə daxilolmalar da 15,1 faiz artaraq 98,2 milyon manata çatıb.
İcbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 15,3 faiz artıb və 683 milyon manat olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 17 faiz artaraq 480,9 milyon manat təşkil edib.

# Zədələnmiş pulları harada dəyişdirmək olar?



Mərkəzi Bank “Nağd pul ofis”lərinin fəaliyyətinin davam etdirilməsi barədə açıqlama yayıb. Təəssüf ki, vətəndaşlarımızın hamısında bu ofislərin fəaliyyəti barədə məlumat olmadığı üçün onlar zədələnmiş və tədavülə yararsız milli pul nişanlarının dəyişdirilməsi ilə bağlı çətinliklərlə üzləşirlər.
Bu barədə iqtisadçı, deputat Vüqar Bayramov sosial şəbəkə hesabında bildirib.
Onun sözlərinə görə, bəzi hallarda vətəndaşlarımız yararsız hala düşmüş pul əskinaslarını daha aşağı dəyərlə fərdi şəxslər vasitəsilə dəyişdirirlər:
“Pulun yararsız hala düşməsi onun tam dəyərdə dəyişdirilməsi üçün hər hansı bir maneə yaratmır. Həmin pulları asanlıqla zədələnməmiş əskinaslar ilə əvəzləmək mümkündür. Qeyd etmək lazımdır ki, vətəndaşlarımız yararsız pul nişanlarını yalnız Bakıda deyil, həmçinin, Naxçıvan, Yevlax, Gəncə, Biləsuvar, Quba şəhərlərində yerləşən ərazi idarələrinə müraciət edərək dəyişdirə bilərlər.
Yararsız pul əskinaslarının dəyişdirilməsi zamanı heç bir ödəniş nəzərdə tutulmayıb. Qanunvericiliyə əsasən, bütöv bir hissədən və ya eyni kağız pul nişanına məxsus ardıcıl hissələrdən ibarət, səthinin 60 faizindən az olmayan hissəsini və üzərindəki iki seriya nömrələrindən ən azı birini tam saxlamış pul nişanının nominal dəyəri Mərkəzi Bank tərəfindən məhdudiyyətsiz ödənilir.
Digər tərəfdən, bütöv səthinin üzərindəki təsvir və yazıları onun nominalını müəyyənləşdirməyə imkan verən həcmdə saxlamış və deformasiyaya məruz qalmamış metal pul nişanının nominal dəyəri Mərkəzi Bank tərəfindən ödənilir. Buna görə də yararsız pul nişanlarınız varsa, onu aşağı dəyərə dəyişdirməyin, qeyd edilən idarələrə müraciət edərək tam məbləği almaqla onları əvəzləşdirə bilərsiniz”.

# BVF Azərbaycanda inflyasiya proqnozunu 10.3%-ə qədər endirib

Beynəlxalq Valyuta Fondu (BVF) bu il Azərbaycanda inflyasiya proqnozunu yeniləyib.
Fond bu il Azərbaycanda inflyasiya proqnozunu 11.3%-dən 10.3%-ə qədər endirib.
BVF hesab edir ki, 2024-cü ildə Azərbaycanda istehlak qiymətləri indeksi 5.6%-ə qədər enəcək. Bu isə Fondun əvvəlki proqnozundan 2.4% bəndi azdır.
BVF 2028-ci ildə isə Azərbaycanda inflyasiyanın 4%-ə enəcəyini müəyyən edib.
Qeyd edək ki, Azərbaycan İqtisadiyyat Nazirliyi 2023-cü ilin yekunları üzrə orta illik inflyasiyanı 9.5%, 2024-cü il üçün 5.3%, 2025-ci il üçün 4.9% proqnozlaşdırıb.




# İşsizlik səviyyəsinin 5.8%-ə enəcəyi proqnozlaşdırılır

Beynəlxalq Valyuta Fondu (BVF) Azərbaycanda işsizliklə bağlı proqnozunu yeniləyib.
Bu barədə Fondun “Dünya iqtisadiyyatının inkişaf perspektivləri” hesabatının oktyabr sayında bildirilib. Hesabata əsasən, Azərbaycanda işsizlik səviyyəsi 2023-cü ildə 5.9% səviyyəsində olacaq. BVF 2024-cü ildə isə ölkədə işsizlik səviyyəsinin 5.8%-ə enəcəyini proqnozlaşdırıb.
Qeyd edək ki, Fond 2022-ci il üzrə işsizlik səviyyəsini 5.9% proqnozlaşdırmışdı.



*Qarabağ uğrunda döyüşən qəhrəmanları unutmayaq!*

# Valeh Bərşadlı (1927-1999)



***Azərbaycanın müdafiə naziri, general Bərşadlı Valeh Əyyub oğlu 6 iyul 1927-ci ildə Qubadlı rayonunun Eyvazlı kəndində dünyaya gəlmişdir. O, Bakı Ali Birləşmiş Komandanlıq məktəbini bitirmişdir. 50 yaşında sovet ordusunda general-leytenant rütbəsi almış ilk azərbaycanlıdır. O, 43 il SSRİ Silahlı Qüvvələrində xidmət etmiş, taqım komandirliyindən ən nəhəng ordulardan (Almaniya Demokratik Respublikasında yerləşən sovet qoşun birləşmələrindən) birinin müavinliyinə qədər yüksəlmişdir. Müstəqil Azərbaycanın 1992-ci ildə ilk müdafiə naziri və Azərbaycan tarixində ilk müvəffəqiyyətli Goranboy və Ağdərə əməliyyatlarını həyata keçirmiş baş qərargah rəisi olmuşdur. 1992-ci ildə tutduğu vəzifədən istefa vermişdir.***

Azərbaycan Silahlı Qüvvələrinin zirehli tank texnikası xidmətinin yaradıcılarından olan, ehtiyatda olan polkovnik Ramiz Məmmədov general-leytenant Valeh Bərşadlının Azərbaycan ordusunun yaradılmasında iştirakı ilə bağlı xatirələrində yazmışdır: "Yadımdadır ki, Azərbaycan Silahlı Qüvvələrinin yaranmasından öncə yaradılan dövlət komissiyasının sədri, mərhum general-mayor Məhəmməd Əsədovun tapşırığı ilə komissiyanın üzvü olan Valeh Bərşadlı bölgələrdə erməni təcavüzkarlarına qarşı özünümüdafiə taborlarının yaranması ilə əlaqədər ön xətdə mobilliyi və silahlanmanı, onların döyüşə hazırlıq səviyyəsinin yüksəldilməsini diqqət mərkəzində saxlayırdı. Bununla yanaşı, Valeh Bərşadlı Ali Sovetin deputatı olduğu üçün plenar iclaslarda çıxış edir, özünümüdafiə taborlarını silah və texnikalarla təchiz etmək üçün dövlətin köməyini istəyirdi.

1991-ci ildə Nazirlər Şurasının müvafiq qərarı və general-leytenant Valeh Bərşadlının rəhbərliyi ilə özünümüdafiə taborlarının silah və texnikalarla təchiz olunması istiqamətləri müəyyən edilərək, vaxtı ilə orta məktəblərdən yığılan və Daxili İşlər Nazirliyinin anbarlarında saxlanılan, kiçik çaplı təlim silahlarının müvafiq maşınqayırma zavodunda döyüş vəziyyətinə gətirilməsi üzrə işlər aparıldı.

General-leytenant Valeh Bərşadlının rəhbərliyi ilə özünümüdafiə taborlarının gənc əsgərləri, ilk növbədə C.Naxçıvanski adına hərbi internat məktəbində hazırlanmış əsgərlər taqım komandiri, polkovnik Sadiq Paşayevin rəhbərliyi ilə Qubadlı rayonuna - Milli Qəhrəman Əliyar Əliyevin taboruna göndərilmişdi. Mərhələli plan əsasında Laçın özünümüdafiə taborlarının gənc əsgərləri hazırlanırdı.

1991-ci il sentyabr ayının 5-də V.Bərşadlı Müdafiə Naziri təyin olunduqdan sonra Müdafiə Nazirliyinin təşkilatlanması və komplektləşdirilməsi təşkil olundu.

Onun əmri əsasında, 1991-ci il sentyabr ayının 15-də tankçı ixtisası üzrə vətənpərvər vətəndaşların könüllü olaraq Milli Orduda xidmət keçməyə cəlb edilməsi barədə Respublika Hərbi Komissarlığına göstərişlər verildi.

Müdafiə naziri, general-leytenant Valeh Bərşadlının əmri əsasında Əlahiddə Tank Taboru 18111 nömrəsi ilə təsis olunmuşdu.

Azərbaycan Respublikasının Milli Özünümüdafiə Qüvvələrinin əsasnaməsi və Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsaslanaraq, özünümüdafiə qüvvələrində xidmətkeçməni tənzimləyən ikitərəfli müqavilə hazırlanmışdı.

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası tərəfindən qəbul edilmiş "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Qanuna əsasən, müdafiə naziri Valeh Bərşadlının 6 oktyabr 1991-ci il tarixində imzaladığı əmrə əsasən, Azərbaycan SSR-in Hərbi Komissarlığı tərəfindən avqust ayında hazırlanmış siyahılar üzrə səfərbərliyə başlandı. Yeni yaranmış tank taboru 1991-ci il oktyabr ayının 20-dən ilkin hərbi geyim və ləvazimatlar, əmlaklarla tədricən komplektləşdirildi.

**General Valeh Bərşadlının əmri əsasında Əlahiddə Tank Taborunun şəxsi heyəti nəzəri biliklərinin möhkəmləndirilməsi məqsədi ilə rotasiya qaydasında döyüş bölgələrində iki həftəlik təcrübə keçmək üçün Goranboy və Ağdama ezam olunurdu.**

Müdafiə Nazirinin növbəti əmri əsasında, 1991-ci il 15 noyabr tarixindən Keşlə qəsəbəsinin ərazisində yerləşən, SSR Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hissəsinin ərazisi qəbul edilərək, həmin ərazidə komplektləşmə davam etmişdi.

Əfsus ki, 1991-ci ildə respublikamızda yaranmış gərgin siyasi vəziyyətdən Müdafiə Nazirliyi də zərbələr aldı. 1991-ci ilin noyabr ayında güclənən mitinq dalğası ictimai həyatın bütün sahələrini əhatə edirdi. O cümlədən, ilk qədəmlərini atan Müdafiə Nazirliyinin rəhbərliyinin ünvanına da yerli-yersiz tənqidi fikirlər söylənir, siyasi məqsədli qarayaxma cəhdləri göstərilirdi. **Nəhayət, bir neçə mitinqdən sonra Azərbaycan Xalq Cəbhəsinin liderləri Müdafiə Nazirliyinin fəaliyyətinə qarşı öz etiraz səslərini daha da ucaldaraq, müdafiə nazirinin istefa tələbini irəli sürdülər. Son nəticədə general-leytenant Valeh Bərşadlı istefa verdi.**

1992-ci il mart ayının 17-də müdafiə naziri təyin edilmiş, lakin Şuşa işğal edildikdən sonra çıxılmaz vəziyyətdə qalan Rəhim Qazıyevin əmri əsasında general-leytenant Valeh Bərşadlı Baş Qərargah rəisi vəzifəsinə gətirildi. Bundan sonra Bərşadlının planlaşdırdığı müəyyən istiqamətlərdə döyüş əməliyyatlarının müsbət nəticələri oldu.

**Lakin orduda baş verən hərcmərcliyi görən general Bərşadlı ordu quruculuğundakı nöqsan və çatışmazlıqlarla barışmayaraq, 1992-ci ilin iyul ayında istefa verdi. Azərbaycan Silahlı Qüvvələri general-leytenant Valeh Bərşadlının timsalında bir savadlı, bacarıqlı kadrını itirmiş oldu.**

General-leytenant Valeh Bərşadlı 1999-cu il mayın 15-də Bakıda vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

## Gömrük sərhəd buraxılış məntəqələrində COVID-19 yoluxmasına qarşı əks-epidemik tədbirlərə dair maarifləndirici təlimlər keçirilib

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Sanitar-Karantin Xidməti tərəfindən "Astara", "Biləsuvar", "Qırmızı Körpü", "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı", "Bakı Hövsan Dəniz Ticarət Limanı", "Liman" və "Dübəndi" gömrük sərhəd buraxılış məntəqələrində (GSBM) COVID-19 yoluxmasına qarşı əks-epidemik tədbirlərə dair maarifləndirici təlimlər keçirilib. Təlimlərə GSBM-lərdə fəaliyyət göstərən bütün xidmət və nəzarət orqanlarının əməkdaşları cəlb olunub.***




Təlimlər zamanı COVID-19 infeksiyası haqqında məlumat, yoluxmanın yolları və əlamətləri, həmçinin fərdi qoruyucu vasitələr və onların istifadə qaydaları barədə DGK Tibbi Xidmət İdarəsi tərəfindən hazırlanan "Xüsusi təhlükəli infeksiyalara qarşı əks-epidemik tədbirlərə dair Təlimat"da əks olunan məlumat təqdim edilib.

Təlimlərin mütəmadi olaraq DGK-nın digər strukturlarında da keçirilməsi nəzərdə tutulub.

## DR.AYNUR SƏFİYEVANIN "EGYPTİAN JOURNAL OF SURGERY" ADLI NÜFUZLU BEYNƏLXALQ JURNALDA MƏQALƏSİ DƏRC OLUNUB

Mərkəzi Gömrük Hospitalının Ümumi Cərrahiyyə şöbəsinin ümumi cərrahı, t.ü.f.d. Aynur Səfiyevanın "Anal çatlarda botoks müalicəsinin nəticələri" mövzusunda məqaləsi Misir Cərrahiyyə Cəmiyyətinin nəşri olan "Egyptian Journal of Surgery" adlı beynəlxalq onlayn jurnalının 2023-cü ilin iyul-sentyabr nömrəsində yayımlanıb.



Dr.Aynur Səfiyeva məqalədə son illərdə anal çatların müalicəsində geniş istifadə olunan Botulinum toksin inyeksiyalarının tətbiqi və prosedurların nəticələri barədə ətraflı məlumat verib. Nəticələr Mərkəzi Gömrük Hospitalında müalicə alan 15 qadın və 9 kişinin retrospektiv müayinəsində istifadə olunan ABŞ-da Allergan firmasından 100 ədəd Botox Tip A istifadə edilməsi əsasında yazılıb. Sınağın məqsədi botulinum inyeksiyalarının anal çatların müalicəsində nə qədər yaxşı işlədiyini görmək idi. Sınaq üçün seçilmiş orta yaşı 46 yaşı olan bütün xəstələrdə botoksdan sonra tam klinik yaxşılaşma müşahidə olunub.

Qürurverici haldır ki, Aynur həkimin həm yerli, həm də nüfuzlu beynəlxalq jurnallarda dərc olunan elmi məqalələrinə çoxlu istinadlar edilir, onun jurnallarda dərc olunan elmi məqalələri və elmi araşdırmaları xarici ölkələrdə nəşr olunan kitablara da daxil edilir. Xatırladaq ki, 2022-ci ilin mart ayında dünyaca məşhur "Springer" nəşriyyatının çapdan çıxmış "Anal fistula və abses" adlı kitabında Aynur həkim "Anal fistulaların lazerlə müalicəsi" adlı bir paraqrafın müəllifidir.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

## Ukrayna taxılı üçün daha bir dəhliz açılır

Ukrayna prezidenti Volodimir Zelenski Rumıniyaya səfərindən sonra yaxın vaxtlarda daha bir taxıl dəhlizinin fəaliyyətə başlayacağını açıqlayıb. Bu barədə o, özünün teleqram kanalında yazıb. Onun sözlərinə görə, gəmilər Moldovadan keçməklə Rumıniyaya gedəcək. Zelenski başqa təfərrüatları açıqlamayıb.

İyul ayında Rusiya taxıl müqaviləsində iştirakını dayandırıb və Ukrayna limanlarına gedən bütün gəmiləri potensial hərbi hədəflər elan edib.

Avqust ayında Ukrayna üç Qara dəniz limanından: Odessa, Çernomorsk və Yujnıdan gələn gəmilər üçün müvəqqəti dəhlizlərin açıldığını elan edib. Alternativ dəhlizdən ən azı iki Ukrayna gəmisi keçib.



## İsrail-Fələstin sülhü üçün intensiv diplomatik təmaslarımızı davam etdiririk

Bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

"Beynəlxalq ictimaiyyətin fələstinlilərə verdiyi vədlərə əməl etməməsi Yaxın Şərqdəki problemlərin dərinləşməsində ciddi rola malikdir. İnanırıq ki, 1967-ci il sərhədləri daxilində, paytaxtı Qüds olan, müstəqil, suveren, coğrafi bütövlüyü olan Fələstin dövləti qurulmadan bölgədə sülh olmayacaq", – deyə Ərdoğan bildirib. O qeyd edib ki, tərəflər tələb edərsə, Türkiyə olaraq hər cür vasitəçiliyə, o cümlədən məhbus mübadiləsinə hazırıq. "Biz İsraildən Fələstin torpaqlarını bombardmanlarını dayandırmasını və fələstinlilərin İsraildəki mülki yaşayış məntəqələrinə təzyiqlərini dayandırmasını xahiş edirik", – deyə Ərdoğan vurğulayıb.

O bildirib ki, Qəzza əhalisinin ehtiyac duyacağı humanitar yardım materiallarının tədarükü üçün hazırlıq işləri görürük.




**Azəri Light və Brent markalı neftin bir barelinin 5 – 11 oktyabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

## Fələstin-İsrail müharibəsi fonunda neftin qiymətində sıçrayış baş verib

İsrail və Həmas qüvvələri arasında baş verən hərbi toqquşmalar Yaxın Şərqdə siyasi qeyri-müəyyənliyi dərinləşdirdiyi üçün bazar ertəsi Asiya ticarətində neftin qiyməti artıb.

İsraildə baş verənlər investorları qorxudur və təhlükəsiz aktivlərə keçirlər. Bazarlar geosiyasi riski ölçmək üçün Yaxın Şərqdəki hadisələri yaxından izləyirlər.

Həftə sonu analitiklər bildirmişdilər ki, artan geosiyasi risk qızıl, dollar və ABŞ Xəzinə istiqrazlarına tələbi artıracaq. Bazar ertəsi Asiyada ticarət başlayan kimi bu proqnoz özünü doğrultdu. ABŞ fond fyuçersləri düşüb, xam neft, qızıl və xəzinə istiqrazları bahalaşıb.

Bazar ertəsi Asiya ticarətində neftin qiyməti bir barel üçün 4 dollardan çox artıb. Bakı vaxtı ilə saat 08:00-da Brent nefti 3,7% bahalaşama ilə 87,72 dollardan ticarət olunub.

Gecə saatlarında Brent nefti 4,94% artaraq bareli 88,76 dollara çatıb.

İqtisadçılar bildirirlər ki, hadisənin bazarlara əlavə təsiri onun nə qədər davam edəcəyindən və başqalarının münaqişəyə cəlb edilib-edilməməsindən asılıdır.

**ALLAH RƏHMƏT ELƏSİN**

Ziyad Səmədzadə, Vahid Novruzov, Rauf Mikayılzadə və Səbuhi Gülməmmədov yaxın dostları Mail Rəhimova həyat yoldaşı

**SƏYYARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**